*01 sentyabr 2026-cı il tarixli XB-İ/1.9.2026-002 №-li Əmrin*
*1 saylı Əlavəsi*

***ASC «Xalq» Bankı tərəfindən təqdim edilən bank (maliyyə) xidmətləri ilə bağlı suallar yarandıqda, həmin xidmətlərdən istifadə zamanı sizin istehlakçı hüquqlarınız pozulduqda, o cümlədən qarşılaşdığınız hər hansı digər çətinliklər barədə (+99412) 966 qaynar xətti və ya (+99412) 493 50 58 telefon nömrəsi vasitəsilə Azərbaycan Respublikasının Mərkəzi Bankına (AZ1014, Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç., 90) müraciət edə bilərsiniz.***

# *Hüquqi şəxs olan müştərilərə bank hesablarının açılması, onlara xidmət göstərilməsi və bank hesablarının bağlanması QAYDALARI*

***Məzmun***


1. Termin və anlayışlar ........................................................................................................ 3
2. Ümumi müddəalar ........................................................................................................ 4 - 6
3. Tərəflərin hüquq və vəzifələri ........................................................................................ 6 - 11
4. Tərəflərin maliyyə münasibətləri .................................................................................. 11 - 12
5. Tərəflərin məsuliyyəti ................................................................................................. 12 - 13
6. Konfidensiallıq ........................................................................................................... 13 - 14
7. Mübahisələrin həlli qaydası ......................................................................................... 14 - 15
8. Müqaviləyə xitam verilməsi qaydası ............................................................................ 15 - 16
9. Tərəflərin xəbərdar edilmə qaydası ............................................................................. 16 - 17

## 1. *TERMİN VƏ ANLAYIŞLAR*

**Bank** – Açıq Səhmdar Cəmiyyəti «Xalq» Bankı və onun filialları;

**Bankın saytı –** internet şəbəkəsində www.xalqbank.az ünvanı üzrə Bankın rəsmi saytı;

**Benefisiar mülkiyyətçi** – son nəticədə müştəriyə nəzarəti həyata keçirən və ya hüquqi şəxs, yaxud xarici hüquqi təsisat olan müştərinin əsl sahibi olan və (və ya) xeyrinə əməliyyat aparılan və (və ya) əqdlər bağlanılan, habelə son nəticədə hüquqi şəxs və ya xarici hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər);

**Hesab** – Müqavilə əsasında Müştəriyə Bankda Azərbaycan Respublikasının milli valyutasında və ya xarici valyutada açılmış cari hesab;

**İmza və möhür nümunəsi vərəqəsi (Vərəqə)** – Qaydalara, o cümlədən Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına uyğun olaraq tərtib və təsdiq olunan, imza hüququna malik olan şəxs(lər)in öz əl imzasını və Müştərinin möhürünü əks etdirən, onda (Vərəqədə) iki və ya daha çox şəxsin imzası nəzərdə tutulduqda, imzaların istifadə qaydasını müəyyən edən, hesab üzərində sərəncam verilməsi ilə bağlı əməliyyatlar aparılarkən Müştəri tərəfindən kağız daşıyıcıda tərtib edilən sənədlərdəki imzanın və möhürün əksinin uyğunluğunun yoxlanılması məqsədilə Banka təqdim olunan sənəd;

**Qaydalar** – hüquqi şəxslərə bank xidmətlərinin göstərilməsinə dair bu Qaydalar, həmçinin Bankın saytında yerləşdirilmiş Şərtlər;

**Qoşulma haqqında ərizə** – Bank tərəfindən müəyyən olunan nümunəyə uyğun lazımi qaydada rəsmiləşdirilən, Qaydalara və Şərtlərə qoşulma yolu ilə Bankla bank hesabı müqaviləsinin bağlanması üçün Müştəri tərəfindən Banka kağız daşıyıcıda və ya elektron formada təqdim olunan yazılı sənəd.

İkinci (hər bir növbəti) hesabın açılması barədə Müştərinin müraciəti onun eyniləşdirilməsi üçün kifayət qədər məlumatların göstərilməsi, eləcə də hesabın açılması və aparılması üçün Banka lazım olan bütün zəruri məlumatların əks etdirilməsi şərtilə Qoşulma haqqında ərizədən istifadə edilməklə rəsmiləşdirilir;

**Məsafədən bank xidmətlərinin göstərilməsi sistemi (MBX sistemi)** – Bankda fəaliyyət göstərən, elektron sənədlərin istifadəsinə dair Bankla bağlanmış müvafiq müqavilə/saziş əsasında və onunla müəyyən edilmiş qaydada Müştəri tərəfindən elektron sənədlərin yaradılması və göndərilməsi üçün istifadə edilən məsafədən bank xidmətlərinin göstərilməsi üzrə istənilən sistem;

**Müqavilə** – Şərtlər, Qaydalar, Tariflər və Bankın Müştəri ilə müqavilə bağlamaq niyyətini əks etdirən, Bank tərəfindən qəbul olunmasına dair qeydlə Qaydalara qoşulma haqqında ərizə;

**Müştəri** – Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər (kredit təşkilatları istisna olmaqla);

**ƏL/TMM Qanunu** – «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu;

**Şərtlər** – Bankda hüquqi şəxslərə bank hesablarının açılması, aparılması və bağlanması qayda və şərtlərini tənzimləyən bankdaxili normativ aktlar;

**Tariflər –** Bankın saytında yerləşdirilən və bu Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunan, Hesabın açılması, aparılması və Müştərinin pul vəsaitləri ilə əməliyyatların həyata keçirilməsi üzrə

xidmətlərə görə haqqın miqdarını (məbləğini) və onun tutulması şərtlərini müəyyən edən Bankın tarifləri;

**Tərəflər** – Müştəri və Bank.

## *2. ÜMUMİ MÜDDƏALAR*

2.1. Qaydalar, Şərtlər, Tariflər və Qoşulma haqqında ərizə bank hesabı müqaviləsini təşkil edir (hesab olunur) və Bank tərəfindən Müştəriyə açılan istənilən Hesaba münasibətdə qüvvədədir (tətbiq olunur). Hesab Qoşulma haqqında ərizə Bank tərəfindən qəbul edildikdən sonra onun əsasında açılır, bu şərtlə ki, Bankın saytında yerləşdirilmiş siyahıya uyğun olaraq Hesabın açılması üçün zəruri olan bütün sənədlər və məlumatlar tam həcmdə Banka təqdim edilsin. Bank istənilən vaxt öz mülahizəsinə uyğun olaraq Hesabın açılması və aparılması üçün zəruri hesab etdiyi hər hansı digər sənəd və məlumatların təqdim olunmasını tələb edə bilər. Müqavilənin qüvvədə olduğu müddət ərzində Bank daxili normativ aktlarının tələblərinə riayət edilməsi şərtilə Qoşulma haqqında ərizə əsasında Müştəriyə əlavə bank hesabları aça bilər.

2.2. Qoşulma haqqında ərizəni imzalamaqla və Bankın saytında yerləşdirilmiş siyahıda göstərilən sənədlərlə birlikdə onu Banka təqdim etməklə Müştəri Qaydalarla tanış olduğunu (bu faktı) təsdiq, Qaydaların müvafiq şərtləri ilə razı olduğunu ifadə edir.

2.3. Qoşulma haqqında ərizə Müştəri tərəfindən Banka kağız daşıyıcıda və ya «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə cavab verən gücləndirilmiş elektron imzanın istifadəsinə imkan verən rabitə kanalı (sistemi) vasitəsilə elektron formada təqdim edilə bilər.

2.4. Bank tərəfindən Müştəri ƏL/TMM Qanununun tələblərinə uyğun olaraq, Müştərinin Banka təqdim etdiyi Qaydaların 2.1-ci bəndində göstərilən sənəd və məlumatlar əsasında eyniləşdirildikdə, habelə Qoşulma haqqında ərizəni imzalamış Müştərinin nümayəndəsinin səlahiyyətləri müvafiq yoxlama nəticəsində təsdiq olunduqda Müqavilə bağlanmış hesab olunur. Bankın daxili normativ aktlarının tələblərinə riayət edilməsi şərtilə Müqavilə əsasında Müştəriyə qeyri-məhdud sayda hesab açıla bilər. Müqavilə çərçivəsində ikinci və növbəti Hesab(lar)ı Bank Müştəriyə sonuncunun kağız daşıyıcıda və ya elektron formada lazımi qaydada tərtib edilmiş və imzalanmış (elektron sənəd gücləndirilmiş elektron imza ilə) Qoşulma haqqında ərizəsi əsasında açır. İkinci və növbəti Hesab(lar)ın açılması zamanı Bank Müştəri barədə məlumatların aktuallaşdırılması (yenilənməsi) üçün sonuncudan daha əvvəl təqdim edilmiş sənədlərin yenilənməsini tələb edə bilər.

2.5. Müştəriyə birinci Hesabın açıldığı və ona Bank tərəfindən Hesab(lar)ın açılma tarixini və rekvizitlərini əks etdirən bildirişin göndərildiyi (Hesab Bankın filialına bilavasitə gəlməklə açıldıqda, müvafiq bildirişin təqdim edildiyi) tarixdən Müqavilə bağlanmış (qüvvəyə minmiş) hesab olunur.

2.6. Müştəriyə bank xidmətləri Azərbaycan Respublikasının qanunvericiliyinə, normativ xarakterli aktlarına, bank qaydalarına və Qaydalara uyğun olaraq göstərilir.

2.7. Tərəflər razılaşır və təsdiq edirlər ki, Qaydalar və Tariflər Bank tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər.

Qaydalara (və ya Tariflərə) dəyişikliklərin edilməsi barədə məlumat və Qaydaların (yaxud Tariflərin) yeni redaksiyası Müştəriyə müvafiq dəyişikliklərin qüvvəyə minməsindən 30 (otuz) təqvim günü əvvəl Müqavilənin 9.1-ci bəndində göstərilən üsul(lar)la çatdırılır (dəyişikliklərin bütün mətnini əks etdirən müvafiq məlumat göndərilməklə/təqdim edilməklə).

Bank Müştəriyə yuxarıda göstərilən müddət nəzərə alınmaqla dəyişikliklərin qüvvəyə minmə tarixini əks etdirən «Tariflərə dəyişikliklər barədə» bildiriş də göndərə (o cümlədən MBX sistemi vasitəsilə) bilər. Bu bildiriş Bankın (filiallarının) ofisində və/və ya Bankın saytında yerləşdirilmiş məlumat üzərində üstünlüyə (prioritetə) malik olur. «Tariflərə dəyişikliklər barədə» bildirişdə müəyyən olunan tarixdən etibarən Müştəridən xidmət haqları onların həmin bildirişdə göstərilən yeni həcminə (dəyişdirilmiş Tariflərə) uyğun olaraq tutulur.

Bununla Tərəflər razılaşır və təsdiq edirlər ki, Müqavilə çərçivəsində həyata keçirilən valyuta mübadiləsi (konvertasiya) əməliyyatları üzrə edilən məzənnə dəyişiklikləri bu bəndlə müəyyən olunmuş xəbərdarlıq müddəti tətbiq edilmədən qüvvəyə minir.

2.8. Müqavilə çərçivəsində Müştəriyə Azərbaycan manatında və ya xarici valyutalarda bank hesab(lar)ının açılması və aparılması ilə bağlı xidmətlər göstərilir.

2.9. Müştərinin adından hesab üzrə əməliyyatların aparılması hüququ həmin hüquqa malik şəxslərin səlahiyyətlərini təsdiq edən sənədlərin (etibarnamə, əmr, sərəncam və s.) və lazımi qaydada rəsmiləşdirilmiş Vərəqənin Banka təqdim edilməsi yolu ilə təsdiq edilir. Vərəqədə birinci və/və ya ikinci imza hüququna malik iki və ya daha çox şəxsin imzası əks olunduqda, həmin imzalardan istifadə qaydası Vərəqənin müvafiq hissəsində qeydin aparılması yolu ilə müəyyən edilir.

2.10. Müştərinin adı və (və ya) tabeçiliyi/təşkilati-hüquqi forması/tabe olduğu hüquqi şəxsin adı və (və ya) təşkilati-hüquqi forması dəyişdikdə, o, mümkün olan ən qısa müddət ərzində bu barədə Banka məlumat verməli, müvafiq təsdiqedici (eyniləşdirmə) sənədləri sonuncuya təqdim etməli və «Bank hesabı müqaviləsinə dəyişiklik edilməsi barədə Ərizə» (bu Müqavilənin 1 №-li Əlavəsi ilə nəzərdə tutulmuş formada) ilə Banka müraciət etməlidir. Qeyd edilən Ərizə Bank tərəfindən qəbul olunduqdan sonra həmin Ərizə əlavə saziş qüvvəsinə malik olur və Müqaviləyə müvafiq dəyişikliklər lazımınca rəsmiləşdirilmiş hesab edilir. Müştərinin fərdi məlumatlarında baş vermiş yuxarıdakı dəyişikliklər lazımınca rəsmiləşdirilməyənədək Bank Müştəriyə Hesab üzrə əməliyyatların aparılmasından imtina edə bilər. Bu halda Müştəri üçün baş verə biləcək hər hansı arzuolunmaz hallara, o cümlədən maliyyə itkilərinə görə Bank heç bir məsuliyyət daşımır.

2.11. Müştəri və ya Bank tərəfindən Müqavilənin bağlanılmasından imtina edildikdə, Müştəri yazılı müraciəti əsasında Müqavilənin bağlanması, Hesabın açılması üçün təqdim etdiyi sənədləri geri tələb edə bilər.

2.12. Bununla Müştəri bəyan və təsdiq edir ki, Müqavilənin bağlanması məqsədilə Banka təqdim etdiyi bütün məlumatlar mötəbər, tam və dəqiqdir. Müştəri Bankın Müqavilənin bağlanması və/və ya icra edilməsi barədə qərarına mənfi təsir edə bilən halların mövcud olmadığını təsdiq edir.

2.13. Bununla Müştəri «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq fərdi məlumatları Banka təqdim edilmiş sənədlərdə əks olunan səlahiyyətli nümayəndələrindən onların fərdi məlumatlarının verilməsinə (toplanmasına) və işlənilməsinə razılıqlarını aldığını təsdiq (bəyan) edir. Müştəri qeyd edilən razılıqların alınmaması ilə əlaqədar yarana biləcək bütün arzuolunmaz hallara görə məsuliyyət daşıyır.

Bu Müqavilənin icrası məqsədilə fərdi məlumatlar Bank tərəfindən avtomatlaşdırılmış vasitələrdən istifadə edilməklə və ya belə vasitələr istifadə edilmədən aşağıdakı hərəkətlərin həyata keçirilməsi yolu ilə işlənilir – toplama, yazma, sistemləşdirmə, saxlama, dəqiqləşdirmə (yeniləmə, dəyişdirmə), çıxarma, istifadə etmə, vermə (təqdim etmə), adsızlaşdırma, bloklaşdırma, məhv etmə, eləcə də qüvvədə olan qanunvericiliklə müəyyən olunan hallarda belə məlumatları üçüncü şəxslərə vermə.

Bu bəyan Müqavilə bağlandığı andan qüvvəyə minir və Müqaviləyə xitam verildiyi tarixdən sonra da 5 (beş) il ərzində qüvvədə qalır. Razılıq Müştərinin səlahiyyətli nümayəndəsinin yazılı müraciəti əsasında geri çağrıla bilər. Fərdi məlumatların işlənməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə Bankın vəzifəsi kimi müəyyən edildiyi hallar istisna olmaqla Bank müvafiq razılıq geri çağrıldığı təqdirdə Müştərinin və ya müvafiq fərdi məlumat subyektinin tələbindən asılı olaraq fərdi məlumatları ən geci 30 (otuz) gün ərzində məhv edir və ya arxivləşdirir.

Bank fərdi məlumatların «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş işlənmə prinsip və qaydalarına riayət etməyi, onların işlənməsi zamanı fərdi məlumatların məxfiliyini və təhlükəsizliyini təmin etməyi, yəni fərdi məlumatlara qanunsuz və ya təsadüfi çıxışın, onların məhvinin, dəyişdirilməsinin, bloklaşdırılmasının, surətinin çıxarılmasının qarşısını almaq üçün zəruri və yetərli hüquqi, təşkilati və texniki tədbirləri görməyi, habelə «Fərdi məlumatlar haqqında» Qanunla fərdi məlumaların qorunması üzrə müəyyən edilmiş bütün digər tələbləri yerinə yetirməyi öhdəsinə götürür.

2.14. Bununla Müştəri həm Bank, həm də üçüncü şəxslər tərəfindən Müştəriyə Müqavilədən irəli gələn və/və ya onunla bağlı olan xidmətlərin göstərilməsi, yeni növ xidmət və məhsulların təqdim edilməsi (eləcə də Bank tərəfindən keçirilən marketinq tədbirləri və aksiyaları barədə məlumatlandırıcı

ismarıcların göndərilməsi), məlumatların emalı, statistik hesabatların hazırlanması, risklərin idarə edilməsi məqsədilə Müştəriyə aid məlumatların (adı və təşkilati-hüquqi forması, mobil və stasionar telefon nömrələri, elektron poçt ünvanı, yaradılma tarixi, Müqavilədən irəli gələn öhdəliklərin icrası və/və ya yuxarıda qeyd edilən xidmətlərin göstərilməsi üçün tələb olunan digər məlumatlar) Bank tərəfindən toplanılmasına və işlənilməsinə (avtomatlaşdırılmış işlənmə də daxil olmaqla məlumatların yazılması, saxlanması, sistemləşdirilməsi, dəqiqləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, istifadəsi, üçüncü şəxslərə ötürülməsi (o cümlədən transsərhəd ötürülməsi), çıxarılması, adsızlaşdırılması, bloklaşdırılması və məhv edilməsi), habelə Bank və üçüncü şəxslər tərəfindən müxtəlif kommunikasiya vasitələri ilə onunla əlaqə saxlanılmasına (o cümlədən Qaydaların 9.2-ci bəndində nəzərdə tutulan qaydada) razılıq verir. Üçüncü şəxslər deyildikdə, qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin xidmətlərin göstərilməsi məqsədilə Bank ilə bağlanmış müqavilələrə əsasən belə məlumatı əldə etmək hüququna malik şəxslər başa düşülür.

Qeyd edilən razılıq 2.13-cü bəndin üçüncü abzasında müəyyən edilən müddət ərzində qüvvədə olur. Bu müddət bitdikdən sonra məlumatlar məhv edilir və ya arxivləşdirilir.

2.15. Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1390-IVQ №-li Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə» Sazişin tələblərinə əsasən Bankın hesabat verən maliyyə institutu kimi ABŞ-ın vergi mükəlləfiyyətli hüquqi və fiziki şəxsləri, habelə iştirakçı olmayan maliyyə institutları barədə həmin Sazişlə nəzərdə tutulmuş məlumatları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vasitəsilə ABŞ-ın səlahiyyətli dövlət orqanına ötürmək öhdəliyini daşıdığını nəzərə alaraq, Müştəri ona açılan Hesabın ABŞ-ın hesabat verilməli hesabı olub-olmadığının müəyyənləşdirilməsini təmin etmək məqsədilə «Vergi rezidentliyinin müəyyən edilməsi üçün Özünüqiymətləndirmə anketi»ni (bundan sonra «Anket» adlandırılacaq) və Anketin cavablandırılmasından (Müştərinin ABŞ şəxsi olub-olmamasından) asılı olaraq IRS W-9 və ya IRS W-8 BEN-E formasını doldurmaqla Banka təqdim edir. Müştəri IRS W-9 və IRS W-8 BEN-E formaları ilə Bankın internet şəbəkəsində olan www.xalqbank.az saytında tanış ola bilər.

Bu bəndin birinci abzasında göstərilən Anketdən həmçinin Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma (bundan sonra «Çoxtərəfli Razılaşma») çərçivəsində tətbiq edilən Ümumi Hesabatlılıq Standartına (Common Reporting Standard – CRS) uyğun məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə istifadə olunur.

2.16. Müştərinin Hesabı üzrə elektron sənəd dövriyyəsindən istifadə olunmaqla (MBX sistemi vasitəsilə) məsafədən bank xidmətləri Bank tərəfindən bu Qaydalar və Tərəflər arasında bağlanan ««Xalqbank online» internet bank sistemi vasitəsilə bank əməliyyatlarının aparılmasına dair» müqavilə əsasında göstərilir. Qeyd edilən xidmətlərin göstərilməsi şərtləri və qaydası həmin müqavilə ilə müəyyən edilir.

## *3. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ*

3.1. ***Bankın vəzifələri:***

3.1.1. Qaydalara uyğun olaraq Müştəriyə bank xidmətləri göstərmək, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və Müqaviləyə müvafiq surətdə onun tapşırıqları əsasında bank əməliyyatlarını aparmaq;

3.1.2. Müştərinin hesabına daxil olan pul vəsaitini qəbul etmək və müvafiq (pul vəsaitinin daxil olduğu) əməliyyat günündən (Bankın müştəri sərəncamlarının qəbulu və bank əməliyyatlarının aparılması üçün müəyyən etdiyi iş vaxtından) gec olmayaraq hesaba mədaxil etmək, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın;

3.1.3. Hesabdan müvafiq məbləğlərin köçürülməsinə və bu yarımbəndin ikinci abzasında göstərilənlər nəzərə alınmaqla verilməsinə dair Müştərinin sərəncamlarını müvafiq ödəniş sənədinin Banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq yerinə yetirmək, bu şərtlə ki, qanunvericiliklə, qanunvericiliyə uyğun qəbul edilmiş bank qaydaları ilə ayrı müddətlər müəyyən edilməsin.

Bankın korporativ kart məhsulunu əldə etdikdə, «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nağd qaydada hesablaşmaların aparılmasına qoyulan məhdudiyyətlərə riayət olunmasına Bank tərəfindən nəzarətin həyata keçirilməsini təmin etmək məqsədilə, Müştəri Hesab(lar)dan və/və ya müvafiq korporativ kart(lar)ı üzrə kart hesab(lar)ından nağd vəsaitlərin məxaric edilməsi üzrə limitləri (müvafiq kateqoriyadan olan vergi ödəyicilərinə (təsərrüfat subyektlərinə) qanunvericiliyin nağd əməliyyatların aparılmasının yol verdiyi ümumi limit çərçivəsində) əvvəlcədən müəyyən etməklə Banka bildirməlidir. Müştəri Hesab(lar)dan və/və ya müvafiq korporativ kart(lar)ı üzrə kart hesab(lar)ından vəsaitlərin nağdlaşdırılmasına dair sərəncamlarını yalnız həmin limitlər çərçivəsində verə, onun bu sərəncamları isə yalnız müvafiq hədlərdə icra oluna bilər;

3.1.4. Hesabdan pul vəsaitinin silinməsini Müştərinin sərəncamına əsasən həyata keçirmək. Müştərinin sərəncamı olmadan hesabdan pul vəsaitinin silinməsinə məhkəmənin qərarı ilə, habelə qanunvericiliklə müəyyənləşdirilmiş və ya bu Müqavilədə nəzərdə tutulmuş digər hallarda yol verilir;

3.1.5. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə, hesabdan vəsaitin silinməsini Müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olmasının təqvim ardıcıllığına riayət etməklə həyata keçirmək, bu şərtlə ki, qanunvericilikdə ayrı qayda nəzərdə tutulmasın.

Hesabdakı pul vəsaiti, ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə, hesabdan pul vəsaiti Azərbaycan Respublikası Mülki Məcəlləsinin 965-ci maddəsi ilə nəzərdə tutulan ardıcıllıqla silinir;

3.1.6. Bank sirrini qorumaq. Bank sirri təşkil edən məlumatlar (bank hesabı, bank əmanəti, hesab üzrə əməliyyatlar və Müştəri haqqında məlumatlar) yalnız Müştərinin özünə və ya müvafiq səlahiyyətə malik olan nümayəndələrinə verilə bilər. Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə, habelə digər üçüncü şəxslərə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər;

3.1.7. Müştəriyə xidmət göstərən Bankın mütəxəssisi vasitəsilə Müqavilənin 3.2.5-ci yarımbəndində göstərilən sənədlərin doldurulma qaydasını Müştəriyə tam və aydın şəkildə izah etmək, eləcə də zəruri olduğu hallarda sənədlərin doldurulmasında sonuncuya köməklik göstərmək;

3.1.8. Hesabın bağlanması zamanı Müştərinin Banka hesablaşma-kassa və digər xidmətlərin göstərilməsinə görə ödənilməli olduğu məbləğlər çıxılmaqla, hesabdakı pul məbləğinin qalığını Müştəriyə vermək və ya Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci 7 (yeddi) gün ərzində başqa hesaba köçürmək.

3.2. ***Bankın hüquqları:***

3.2.1. Hesab(lar)da olan pul vəsaitinə dair Müştərinin maneəsiz sərəncam vermək hüququna təminat verməklə, bu vəsaitdən istifadə etmək;

3.2.2. Hesabda pul vəsaiti olmadıqda Hesabın kreditləşdirilməsi yolu ilə ödənişləri həyata keçirmək. Bu halda Bank bu cür ödənişi həyata keçirdiyi gündən Müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır. Hesabın kreditləşdirilməsi ilə bağlı Tərəflərin hüquq və vəzifələri, hesabın kreditləşdirilməsinə dair Tərəflər arasında bağlanılan sazişdə (müqavilədə, əlavə sazişdə və s.) digər şərtlər nəzərdə tutulmazsa, Mülki Məcəllənin borc və kredit haqqında qaydaları ilə müəyyənləşdirilir;

3.2.3. Hesaba səhvən daxil edilmiş və ya Hesabdan səhvən silinmiş pul vəsaitini Müştəriyə xəbər vermədən silmək və ya bərpa etmək;

3.2.4. Müştərinin Bank qarşısında müqavilə və/və ya digər mülki-hüquqi əsaslardan əmələ gələn pul öhdəlikləri üzrə pul vəsaitlərini, bu öhdəliklərin icra müddətinin başa çatmasından, həmin öhdəliklərin icra müddəti müəyyən edilmədikdə isə onların əmələ gəlməsindən sonra Müştərinin Hesabından akseptsiz qaydada silmək;

3.2.5. Müştərinin təqdim etdiyi Anket və ya digər mənbələrdən əldə edilən məlumatlar əsasında Hesabın ABŞ-ın və ya Çoxtərəfli Razılaşmanı imzalayan dövlətlərin hesabat verilməli hesabı olduğu müəyyən edilərsə, müvafiq dövlətlərarası müqavilədə/sazişdə nəzərdə tutulan məlumatları həmin sənədlərlə müəyyənləşdirilən qaydada səlahiyyətli dövlət orqanına ötürmək;

3.2.6. Müştəri Müqavilənin 3.3.4-cü yarımbəndində göstərilən sənədlərin doldurulmasından və ya Banka təqdim edilməsindən boyun qaçırdıqda, Müştəriyə hesab açılmasından imtina etmək;

3.2.7. Müştərinin Hesabı üzrə aparılan nağdsız köçürmə əməliyyatlarının marşrutunu müstəqil şəkildə

müəyyən etmək;
3.2.8. Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş Hesabın açılması üçün zəruri olan sənədlərlə yanaşı, Hesabın açılması zamanı və ya Hesabın mövcud olduğu dövr ərzində Müştərinin əlavə eyniləşdirilməsi və ya onun tərəfindən aparılan hər hansı bank əməliyyatının məqsədinin və mahiyyətinin aydınlaşdırılması üçün əlavə məlumatın əldə edilməsinə zərurət yarandıqda, ƏL/TMM Qanununun, «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun, «Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası»nın, digər normativ (o cümlədən Bankın daxili normativ aktlarının) və normativ xarakterli aktların tələblərinə riayət edilməsi məqsədilə Müştəridən digər məlumatların və sənədlərin təqdim edilməsini tələb etmək. Əməliyyatın cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (çirkli pulların yuyulması), yaxud terrorçuluğun maliyyələşdirilməsi məqsədilə aparılmasına dair şübhələr yarandıqda, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş sənəd və məlumatlar Müştəri tərəfindən Banka təqdim edilmədikdə, Bank Müştərinin müvafiq əməliyyatın aparılmasına dair sərəncamının icrasından imtina edə bilər. Bu halda Bank təxirəsalınmadan Müştərini məlumatlandırır;
3.2.9. ƏL/TMM Qanununda göstərilən hallarda maliyyə monitorinqi orqanının qərarı əsasında, habelə «Hədəfli maliyyə sanksiyaları haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş əsaslar mövcud olduqda Müştərinin Hesabı üzrə əməliyyatların icrasını dayandırmaq və ya Hesabdakı vəsaitləri dondurmaq. Bu zaman, Bank tərəfindən ƏL/TMM Qanununun Müştərinin Hesabı üzrə əməliyyatların dayandırılması və aktivlərin dondurulmasına dair tələbləri gözlənilməlidir;
3.2.10. Hesab üzrə aparılan əməliyyatın iqtisadi mahiyyətinin müəyyənləşdirilməsi, Hesaba daxil olan və ya Hesabdan köçürülən pul vəsaitlərinin əldə olunma mənbəyi barədə mümkün qədər tam məlumatın alınması, təsis sənədlərində bəyan edilmiş fəaliyyət növlərinə uyğun olmayan əməliyyatların aparılmasının hüquqi riskləri, o cümlədən işgüzar nüfuzun itirilməsi riskini yüksəltməsinə Müştərinin diqqətinin cəlb edilməsi, eləcə də Müştəri qarşısında müqavilə (işgüzar) münasibətlərinin davam etdirilməsinin məqsədəuyğunluğu məsələsinin qaldırılması məqsədilə Müştərinin rəhbərliyi və iştirakçıları (səhmdarları), benfisiar mülkiyyətçiləri ilə görüşlər keçirmək;
3.2.11. Həyata keçirilmiş yoxlamanın nəticələrinə görə Hesab üzrə əməliyyatların aparılmasından (o cümlədən pul vəsaitlərinin mədaxil edilməsindən) aşağıdakı hallarda imtina etmək:

(i) əməliyyat Azərbaycan Respublikasının və ya ərazisində yerləşən xarici müxbir banklarda Bank tərəfindən xarici valyutada hesab açıldığına görə müvafiq xarici dövlətlərin Banka tətbiq edilən qanunvericiliyinə, yaxud beynəlxalq hüququn normalarına zidd olduqda;

(ii) əməliyyatın barəsində iqtisadi sanksiyalar tətbiq edilmiş vəsait alanların xeyrinə və/və ya vəsait alanların belə sanksiyalara məruz qalmış və/və yaxud ticarət embarqosu və/və ya iqtisadi sanksiyalar tətbiq olunmuş dövlətlərdə/ərazilərdə qeydə alınmış, yerləşən və ya hər hansı bir formada onlarla əlaqəli olan banklarda açılmış hesablarına köçürülmə üzrə aparıldığı ehtimal olunduqda. Müştəri sorğu əsasında istənilən vaxt belə dövlət və ərazilərin siyahısını almaq hüququna malikdir. Göstərilən siyahı Bank tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər;

(iii) Müştərinin ödəniş tapşırığının ödənişin təyinatı hissəsində və ya digər rekvizitlərində Azərbaycan dilində və/və ya xarici dildə barəsində embarqo və/və ya iqtisadi sanksiyalar tətbiq edilmiş dövlətlər/ərazilər, yaxud coğrafi adlar, o cümlədən belə dövlətlərdə/ərazilərdə yerləşən yaşayış məntəqələri göstərildikdə;

(iv) əməliyyatın Müştərinin razılığı olmadan aparılmasına dair Bankın şübhələri yarandıqda və həmin şübhələri Qaydaların 9.1.1-ci yarımbəndində göstərilən üsullarla Müştəri ilə əlaqə saxlayaraq aradan qaldırmaq (əməliyyatın icrası üçün təsdiqin alınması) mümkün olmadıqda;

(v) Hesaba mədaxil edilən, yaxud Hesabda mövcüd olan vəsaitlərin mənbəyi barədə təqdim olunan məlumat və/və ya sənədlərin həqiqiliyinə və ya doğruluna dair şübhələr yarandıqda.

3.2.12. Aşkar olunmuş əlamətlər pul vəsaitlərinin köçürülməsi üzrə əməliyyatın Müştərinin razılığı olmadan aparılmasına dəlalət etdikdə, Hesabdan pul vəsaitlərinin silinməsinədək ən çoxu 2 (iki) iş günü müddətinə sərəncamın icrasını dayandırmaq və sərəncamın geri çağrılması, yaxud icrasının bərpa olunması üçün Qaydaların 9.1.1-ci yarımbəndində göstərilən üsullarla Müştəri ilə əlaqə saxlamaq. Müştəridən sərəncamın geri çağrılması və ya icrasının bərpa olunması barədə məlumat almaq mümkün olmadıqda, Bank sərəncamın icrasının dayandırıldığı vaxtdan 2 (iki) iş günü keçdikdən sonra onun icrasını bərpa edir;

3.2.13. Ödəyiciyə pul vəsaitlərinin köçürülməsi üzrə xidmət göstərən operatordan pul vəsaitlərinin Hesaba mədaxil edilməsinin dayandırılması barədə bildiriş aldıqda, müvafiq bildirişi aldığı tarixdən 5 (beş) iş günü müddətinə vəsaitlərin Hesaba mədaxilini dayandırmaq. Bank Qaydaların 9.1.1-ci yarımbəndində göstərilən üsullarla pul vəsaitlərinin mədaxilinin dayandırılması və göstərilən müddət ərzində köçürülmüş pul vəsaitlərinin onun tərəfindən alınmasının əsaslılığını təsdiq edən sənədlərin təqdim olunmasının zəruriliyi barədə təxirəsalınmadan Müştəriyə bildiriş göndərir.

Bank tərəfindən Hesaba pul vəsaitlərinin mədaxili dayandırıldıqdan sonra 5 (beş) iş günü ərzində Müştəri pul vəsaitlərinin onun tərəfindən alınmasının əsaslılığını təsdiq edən sənədləri Banka təqdim etmədikdə, sonuncu pul vəsaitlərini ödəyiciyə müvafiq xidmətləri göstərən operatora qaytarır;

3.2.14. Əməliyyat Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olduqda, Müştərinin sərəncamı lazımınca tərtib edilmədikdə (rəsmiləşdirilmədikdə) və ya onun həqiqiliyinə dair əsaslı şübhələr olduqda, habelə səlahiyyətləri təsdiq edilməmiş şəxs(lər) tərəfindən imzalandıqda Müştərinin müvafiq sərəncamını icraya qəbul etməmək. Bu halda Bank müvafiq sənədlərin ona təqdim edildiyi tarixdən sonrakı iş günündən gec olmayaraq Müştəriyə məlumat verir;

3.2.15. Hesabda və ya Hesab üzrə əməliyyatların aparılmasına görə komissiyaların ödənilməsi üçün Tərəflərin müəyyənləşdirdiyi digər hesabda Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən olunmuş və müvafiq hesab üzrə əməliyyatların aparılmasına, habelə Bankın Tariflərinə uyğun tam həcmdə ödənilməsinə maneə yaradan məhdudiyyətlərdən azad, kifayətedici məbləğdə pul vəsaitləri olmadıqda Müştəriyə Müqaviləyə əsasən ödənişli xidmətlərin göstərilməsindən imtina etmək;

3.2.16. Müştəri Bankdakı yeganə (sonuncu) Hesabını bağladıqda, Müqavilənin icrasından imtina etmək;

3.2.17. Müvafiq şəxslərin Hesab üzrə sərəncam verilməsi ilə bağlı hüquqları (səlahiyyətləri) müəyyənləşdirilmədikdə və ya Bankın həmin şəxslərin Hesab üzrə sərəncam vermə hüquqları (səlahiyyətləri) barəsində şübhələri olduqda, səlahiyyəti olmayan şəxslər tərəfindən Hesabdakı pul vəsaitlərinə sərəncam verilməsinin qarşısını almaq məqsədilə Müştərinin Hesab üzrə məxaric əməliyyatları aparmaq (o cümlədən MBX sistemi vasitəsilə) hüququnu tam və ya qismən məhdudlaşdırmaq. Bu halda məxaric əməliyyatları üzrə tətbiq edilmiş məhdudiyyətlər yalnız Müştəri tərəfindən təqdim edilmiş sənədlər bütün ziddiyyət və şübhələrin aradan qaldırılması baxımından Bank tərəfindən kifayətedici hesab edildiyi təqdirdə götürülə bilər;

3.2.18. Müştəri/Müştərinin nümayəndəsi tərəfindən 3.3.13-cü yarımbənddə göstərilən məlumatlar müəyyən olunmuş müddətdə təqdim olunmadıqda, Bank aşağıdakı əməliyyatlar istisna olmaqla, bank xidmətlərinin göstərilməsindən, o cümlədən Müştərinin əməliyyatların həyata keçirilməsinə dair sərəncamlarının icrasından imtina edə bilər:

- Müştərinin Hesabına köçürülmüş pul vəsaitlərinin mədaxil edilməsi üzrə əməliyyatlar; və
- qanunvericiliyə əsasən ödəyicilərin bank hesablarına sərəncamlar təqdim etmək hüququna malik olan şəxs, orqan və qurumların, o cümlədən icra qurumlarının inkasso sərəncamları, vergi və gömrük orqanlarının sərəncamları əsasında köçürmələr üzrə əməliyyatlar;

3.2.19. Azərbaycan Respublikasının qanunvericiliyində və Müqavilədə nəzərdə tutulmuş hallarda Hesabdan pul vəsaitlərini silmək;

3.2.20. Müştərini Qaydaların 2.7-ci bəndində nəzərdə tutulmuş qaydada xəbərdar etməklə Tarifləri birtərəfli qaydada dəyişdirmək.

3.3. ***Müştərinin vəzifələri:***

3.3.1. Hesabdakı pul vəsaitinə dair sərəncamları qüvvədə olan qanunvericiliyə, normativ xarakterli aktlara, Hesabın rejiminə və Müqaviləyə müvafiq surətdə vermək;

3.3.2. Bankı Hesab üzrə aparılmış səhv əməliyyatlar barəsində xəbərdar etmək. Hesab üzrə çıxarışlar o vaxt təsdiq edilmiş sayılır ki, Müştəri çıxarışları aldığı tarixdən etibarən 3 (üç) təqvim günü ərzində öz iradlarını təqdim etməmiş olsun;

3.3.3. Hesaba xidmət göstərilməsi, Hesab üzrə əməliyyatların aparılması ilə bağlı xidmət haqlarını və xərcləri bu Müqavilənin 4-cü bəndi ilə müəyyən edilmiş qaydada ödəmək;

3.3.4. Müqavilənin 2.15-ci bəndində göstərilən Anketi və Anketin cavablandırılmasının nəticələrinə əsasən vergi məqsədləri üçün ABŞ hüquqi şəxsi olması müəyyən edildikdə ABŞ vergi ödəyicisinin

nömrəsini əks etdirən IRS W-9, ABŞ şəxsi olmadıqda isə IRS W-8 BEN-E formasını müvafiq bəndlər üzrə tam və müfəssəl məlumatlar daxil etməklə doldurmaq və həmin sənədləri kağız daşıyıcıda səlahiyyətli şəxslərinin imzası və möhürü, yaxud elektron formada gücləndirilmiş elektron imza vasitəsilə təsdiq edərək Banka təqdim etmək;

3.3.5. Müqavilənin bağlanması tarixindən etibarən hər 3 (üç) ildə bir dəfə Anketi və IRS W-8 BEN-E formasını (ABŞ hüquqi şəxsi statusuna malik olmadıqda) Müqavilənin 3.3.4-cü yarımbəndində göstərilmiş qaydada elektron formada və ya kağız daşıyıcıda Banka təqdim etmək;

3.3.6. Müqavilənin 2.1-ci bəndində nəzərdə tutulmuş hesabın açılması üçün zəruri olan sənədlərlə yanaşı, Hesabın açılması zamanı və ya Hesabın mövcud olduğu dövr ərzində Müştərinin əlavə eyniləşdirilməsinə və ya onun tərəfindən aparılan hər hansı bank əməliyyatın məqsədinin və mahiyyətinin aydınlaşdırılması (Hesab üzrə əməliyyatlara nəzarətin həyata keçirilməsi, o cümlədən ödəyici tərəfindən köçürülmüş pul vəsaitlərinin Müştəri tərəfindən alınmasının əsaslılığının təsdiq edilməsi) üçün əlavə məlumatın əldə edilməsinə zərurət yarandıqda ƏL/TMM Qanununun, «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun, «Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası»nın, digər normativ (o cümlədən daxili normativ aktların) və normativ xarakterli aktların tələblərinə riayət edilməsi məqsədilə Bankın tələb etdiyi məlumatları və sənədləri müvafiq tələbi aldığı tarixdən 5 (beş) iş günü ərzində Banka təqdim etmək;

3.3.7. Bank tərəfindən hesaba səhv daxil edilmiş və akseptsiz qaydada silinməsi mümkün olmayan vəsaitləri Bankdan bu barədə müvafiq məlumatı aldığı tarixdən 2 (iki) iş günü ərzində Banka geri qaytarmaq;

3.3.8. Yeni Vərəqə və/və ya Qaydalarla nəzərdə tutulmuş digər sənədləri təqdim etməklə Hesab üzərində sərəncam vermək səlahiyyətinə malik olan şəxslərin siyahısında və/və ya Vərəqədə nəzərdə tutulmuş imzaların (birinci və/və ya ikinci imzaların) istifadə qaydasında baş vermiş dəyişikliklər barədə Bankı mümkün olan ən qısa müddətdə məlumatlandırmaq.

Müştəri tərəfindən bu bənddə nəzərdə tutulmuş vəzifələr pozulduqda, Hesab üzərində sərəncam vermə səlahiyyətini itirmiş/səlahiyyəti dəyişdirilmiş şəxs(lər) tərəfindən əməliyyatların aparılması, yaxud belə səlahiyyətlər verilmiş yeni/səlahiyyətləri dəyişdirilmiş şəxslər tərəfindən əməliyyatların vaxtında həyata keçirilə bilinməməsi nəticəsində Müştəriyə dəyən (vurulmuş) zərərə görə Bank heç bir məsuliyyət daşımır;

3.3.9. Fəaliyyət növləri, hüquqi ünvanı/olduğu (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi) yer, telefon və faks nömrələri, elektron poçt ünvanları, Müştərinin daha əvvəl eyniləşdirilməsi zamanı təqdim etdiyi digər məlumatlar, adından etibarnaməsiz çıxış etmək hüququna malik olan şəxs və ya orqanlar, Müştərinin nümayəndəsi, benefisiar mülkiyyətçisi, eləcə də Hesabın vəziyyəti haqqında məlumat almaq səlahiyyəti olan şəxslər dəyişdikdə, habelə Müştərinin təsis sənədlərinə dəyişikliklər edildikdə, ləngimədən, lakin istənilən halda 3 (üç) iş günündən gec olmayaraq, həmin dəyişiklikləri təsdiq edən lazımınca tərtib olunmuş müvafiq sənədləri Banka təqdim etmək. Əlaqə telefonları və faks nömrələri, elektron poçt ünvanları dəyişdirildikdə, habelə Müştəriyə aid digər məlumatlarda dəyişikliklər baş verdikdə, Müştəri Banka səlahiyyətli şəxsi tərəfindən imzalanmış bildiriş göndərməli və ya onu Müştəri ilə Bank arasında elektron sənədlərin istifadəsinə imkan verən razılaşdırılmış kanallar vasitəsilə elektron qaydada sonuncuya təqdim etməlidir. Yuxarıda göstərilən məlumatlardakı dəyişikliklər barədə Müştərinin bildirişi Müqavilənin müvafiq müddəalarının birtərəfli surətdə dəyişdirilməsi hesab olunur və Tərəflərin qarşılıqlı münasibətlərinə onun (bildirişin) Bank tərəfindən alındığı andan şamil edilir.

Müştərinin nümayəndəsinin səlahiyyətlərini təsdiq edən sənədlər də daxil olmaqla, Banka hər hansı sənədin təqdim edilməsi zərurəti yarandıqda, müvafiq sənədlər elektron sənədlərin dövriyyəsi üzrə razılaşdırılmış kanallar və texniki imkanların mövcud olması şərtilə MBX sistemi vasitəsilə göndərilə bilər.

Baş vermiş dəyişikliklərlə bağlı Qaydaların bu bəndində nəzərdə tutulmuş sənədlərin vaxtlı-vaxtında təqdim edilməməsi nəticəsində Müştəriyə dəyən (vurulmuş) zərərə görə Bank heç bir məsuliyyət daşımır.

3.3.10. Bankın tələbi (həmin tələbdə göstərilən müddətdə) ilə apardığı əməliyyatların iqtisadi mahiyyətini açıqlayan məlumatları təqdim etmək, eləcə də Bankdan müvafiq dəvəti aldığı təqdirdə rəhbər şəxslərinin və iştirakçılarının Bank tərəfindən təşkil olunan görüşlərdə iştirakını təmin etmək;

3.3.11. Digər şəxslərin mənafeyi naminə, yəni onların adından, tapşığı üzrə, marağında, bu şəxslərin hesabına, o cümlədən agent, tapşırıq, komissiya və etibarnaməli idarəçilik müqavilələri əsasında Hesab üzrə əməliyyatın aparıldığı və ya digər əqdin icra olunduğu tarixdən 5 (beş) iş günü ərzində Banka faydalanan şəxslər barədə məlumatları təqdim etmək;
3.3.12. Müştərinin, onun nümayəndəsinin, benefisiar mülkiyyətçisinin eyniləşdirilməsi zamanı daha əvvəl Müştəri tərəfindən Banka verilmiş məlumat və sənədlərin yenilənməsi zərurəti barədə Bankdan bildiriş aldıqda, həmin bildirişdə müəyyən olunan müddət ərzində tələb olunan məlumat və sənədləri sonuncuya təqdim etmək;
3.3.13. Pul vəsaitlərinin köçürülməsi üzrə əməliyyatın Müştərinin razılığı olmadan aparılmasına dair şübhələr yarandığına görə müvafiq əməliyyatın Qaydaların 3.2.12-ci yarımbəndinə uyğun olaraq dayandırılması barədə Bankdan bildiriş aldıqda, sərəncamın geri çağırılması və ya icrasının bərpası üçün ləngimədən Bankla əlaqə saxlamaq. Müştəri bununla təsdiq edir ki, Qaydaların 9.1.1-ci yarımbəndində nəzərdə tutulmuş rabitə sistemlərinə giriş səlahiyyətinə malik olan bütün şəxslərin sərəncamı geri çağırmaq və ya onun icrasını bərpa etmək hüququ vardır.

3.4. ***Müştərinin hüquqları:***

3.4.1. Bankdakı Hesab(lar)ında olan pul vəsaitləri üzərində hesablaşma və kassa əməliyyatlarının aparılması qaydasını tənzimləyən Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq sərəncam vermək;
3.4.2. Üçüncü şəxslərin tələbi ilə pul vəsaitinin Hesabdan silinməsi üzrə Banka sərəncam vermək, bu şərtlə ki, müvafiq tələb irəli sürülərkən onu irəli sürən şəxsi eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamda yazılı formada göstərilmiş olsun;
3.4.3. Hesab üzrə dövri ödənişlərin həyata keçirilməsi üçün Banka müvafiq sərəncam vermək. Bu zaman müvafiq ödəniş tapşırığının «Ödənişlə əlaqədar əlavə informasiya» hissəsində dövri ödənişin məbləği, həyata keçirilməsi tarixləri və dövri ödənişlərin başa çatdığı tarix göstərilməlidir. Müvafiq dövri ödənişin həyata keçirilməsi üçün nəzərdə tutulmuş tarixdə Müştərinin Hesabında həmin ödənişin aparılması üçün kifayət qədər vəsait olmadıqda qeyd edilən ödəniş tapşırığı qüvvəsini itirmiş hesab olunur, bu şərtlə ki, Tərəflər arasında Müqavilənin 3.2.2-ci yarımbəndi ilə nəzərdə tutulmuş hesabın kreditləşməsi barədə saziş mövcud olmasın. Dövri ödənişlərin bərpa edilməsi üçün Müştəri Banka yeni ödəniş tapşırığını təqdim etməlidir.

Dövri ödənişlərin müddəti 1 (bir) ildən çox ola bilməz. Bu müddət başa çatdıqdan sonra Müştəri Banka dövri ödənişlərin aparılmasını nəzərdə tutan yeni ödəniş tapşırığı təqdim edə bilər;
3.4.4. Müqavilənin icrası ilə bağlı məsələlər üzrə Bankdan məsləhətlər almaq və sonuncuya yazılı sorğular göndərmək.

## *4. TƏRƏFLƏRİN MALİYYƏ MÜNASİBƏTLƏRİ*

4.1. Müştəri Hesaba xidmət göstərilməsi, Hesab üzrə əməliyyatların aparılması ilə bağlı komissiyaları (xidmət haqlarını) və xərcləri Bankın Tariflərinə müvafiq surətdə ödəyir. Müştərinin Hesabından köçürmə əməliyyatlarının aparılmasında iştirak edən Bankın müxbir-banklarının, digər vasitəçi bank, yaxud hesablaşmaların aparılmasında iştirak edən başqa şəxslərin (bundan sonra birlikdə «Vasitəçi bank» adlandırılacaq) komissiyaları isə Müştəri tərəfindən həmin məqsədlə Bank tərəfindən çəkilən faktiki xərclər həcmində ödənilməlidir.

Bankın Tarifləri onun rəsmi internet səhifəsində (www.xalqbank.az) yerləşdirilmişdir və Müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur. Bank tərəfindən Tariflər dəyişdirildiyi təqdirdə Müştəri 2.7-ci bəndlə müəyyənləşdirilən qaydada bu barədə məlumatlandırılır və yeni Tariflər həmin bənddə nəzərdə tutulan şərtlərlə qüvvəyə minir.
4.2. Müştəri Tariflərə edilmiş əlavə və/və ya dəyişikliklərlə razılaşmadıqda, o Müqaviləni müvafiq dəyişikliklərin qüvvəyə minməsi tarixinədək 8.1.1-ci yarımbəndlə müəyyən edilən qaydada vaxtından əvvəl ləğv edə bilər.
4.3. Müştəridən 4.2-ci bəndlə müəyyən edilmiş müddət ərzində Müqavilənin ləğv edilməsi barədə ərizə daxil olmadıqda, Tərəflər təsdiq edir ki, Müqavilə üzrə Tariflərə edilmiş əlavə və dəyişiklilər Müştəri tərəfindən qəbul edilmiş sayılır.

4.4. Tariflərə edilmiş əlavə və/və ya dəyişiklilər barədə bu Müqavilə ilə müəyyən edilmiş qaydada və müddətlərdə yerləşdirilmiş (təqdim edilmiş) məlumatların Müştəri tərəfindən qəbul olunmamasına, öyrənilməməsinə, düzgün şərh edilməməsinə görə Bank məsuliyyət daşımır.
4.5. Tariflərə edilmiş istənilən əlavə və dəyişikliklər onların qüvvəyə minməsi tarixindən, o cümlədən bu əlavə və dəyişikliklərin qüvvəyə minməsinədək Bankla eyni məzmunlu müqavilələri bağlamış bütün şəxslərə eyni qaydada şamil olunur.
4.6. Əgər Tariflərdə və ya Müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, Müştəri onun əlavə sərəncamı olmadan Müştərinin tapşırıqlarının və digər əməliyyatların icrasına görə komissiyaları və sair xərcləri Tariflərə, Müştərinin Hesabından köçürmə əməliyyatlarının aparılmasında iştirak edən Vasitəçi bankın komissiyalarını isə həmin məqsədlə Bank tərəfindən çəkilən faktiki xərclərə əsasən əməliyyatın həyata keçirildiyi anda Hesabdan silmək hüququnu Banka verir və buna uyğun olaraq müvafiq silinmə əməliyyatının aparılmasını Banka tapşırır.

Əgər əməliyyatın aparıldığı vaxt, yaxud Tariflərdə və ya Müqavilədə nəzərdə tutulmuş digər müddətdə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyənləşdirilmiş məhdudiyyətlər səbəbindən Hesabda Bankın tələblərinin ödənilməsi üçün kifayət edəcək həcmdə sərbəst pul vəsaitləri olmazsa, Müştəri Hesaba hər hansı məhdudiyyətdən azad pul vəsaitləri daxil olduğu və/və ya belə məhdudiyyətin götürüldüyü anda komissiyanın və Bankın digər xərclərinin silinməsini sonuncuya tapşırır.

Bank tərəfindən özünün göstərdiyi xidmətlərə görə komissiyalar Tariflərdə nəzərdə tutulmuş məbləğdən, Vasitəçi bankın komissiyaları isə onların ödənilməsi məqsədilə çəkilmiş faktiki xərclərdən aşağı məbləğdə silindiyi təqdirdə, Müştəri daha əvvəl silinmiş məbləğ çıxılmaqla Banka çatmalı olan komissiyaların/faktiki xərclərin əvəzinin ödənilməsi üçün yetərli məbləğdə pul vəsaitinin silinməsi hüququnu və tapşırığını Banka verir.

Müştərinin Qaydaların bu bəndində nəzərdə tutulmuş tapşırığını Tərəflər Müştərinin Bank qarşısındakı öhdəlikləri üzrə Bankın Müştərinin Hesabına qarşı irəli sürülən tələblərinə münasibətdə əvvəlcədən edilmiş aksept kimi qəbul edirlər. Bu zaman həmin tapşırıq Hesabın rejiminə zidd olmadığı təqdirdə Bankın tələblərinin sayına, Müqavilədən irəli gələn öhdəliklər üzrə məbləğlərə və tələblərin mahiyyətinə heç bir məhdudiyyət qoyulmadan və Bankın tələblərinin hissə-hissə icrası imkanı nəzərdə tutulmaqla yerinə yetirilə bilər.
4.7. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə barəsində Bankın xidmət haqqının tutulmasına imkan verməyən məhdud rejim və/və ya icazə verilmiş əməliyyatların qapalı siyahısı müəyyən olunmuş Hesabdan bu Qaydaların 4.6-cı bəndində nəzərdə tutulmuş məqsədlərlə pul vəsaitlərinin silinməsinə yol verilmir. Belə Hesablar xidmət haqqının ödənilməsi üçün Bankda açılmış digər Hesabın mövcud olduğu və Müştəri tərəfindən həmin Hesabdan müvafiq silinmə əməliyyatlarının aparılmasına dair iradə ifadəsini əks etdirən ərizə verildiyi halda açılır.
4.8. Müştəri Bankın komissiya və xidmət haqlarını digər kredit təşkilatlarında açılmış hesablarından köçürmə yolu ilə ödəyə bilər.
4.9. Bank Müştərinin Hesabındakı pul vəsaitindən istifadə etməsinə görə Müştəriyə faizlər ödəmir.

## *5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ*

5.1. Bu Müqavilə üzrə öz vəzifələrini icra etməyən və ya lazımınca icra etməyən Tərəf digər Tərəfə vurduğu zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən məsuliyyət daşıyır və qarşı Tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.
5.2. Müştəri Hesabın açılması və Hesab üzrə əməliyyatların aparılması üçün təqdim etdiyi məlumat və sənədlərin doğruluğuna (mötəbərliyinə) və tamlığına görə məsuliyyət daşıyır.
5.3. Bank Azərbaycan Respublikasının qanunvericiliyi ilə Hesabın rejiminə dair müəyyən olunmuş tələblərin Müştəri tərəfindən pozulmasına, eləcə də belə pozuntuların nəticələrinə görə heç bir məsuliyyət daşımır.
5.4. Bank bank qaydaları ilə nəzərdə tutulmuş prosedurlardan istifadə etməklə sərəncamın səlahiyyəti olmayan şəxs tərəfindən verilməsi faktını müəyyən edə bilmədikdə, Müştərinin adından belə şəxslər tərəfindən verilmiş sərəncam əsasında Hesabdan pul vəsaitlərinin silinməsinə və/və ya köçürülməsinə görə Bank məsuliyyət daşımır.
5.5. Ödəniş sənədinin icra edilməməsi və ya lazımınca icra edilməməsi Bankın təqsiri ilə bağlı

olmadıqda, o cümlədən bu cür hallar Müştəri tərəfindən ödəniş sənədinin rekvizitlərində səhvə yol verilməsi və/və ya vasitəçi-bank, ödənişi alanın bankı, yaxud hesablaşmaların aparılmasında iştirak edən digər şəxslər tərəfindən pul vəsaitlərinin köçürülməsi qaydalarının və ya banklar arasında bağlanmış müqavilənin pozulması ucbatından baş verdikdə, Bank Müştəri və hər hansı üçüncü şəxslər qarşısında heç bir məsuliyyət daşımır.
5.6. Qaydaların 3.2.14-cü yarımbəndində göstərilən hallarda, o cümlədən Müştəri tərəfindən ödəniş sənədlərinin Banka kağız daşıyıcıda təqdim edilməsinə baxmayaraq, Vərəqə tərtib edilmədikdə (rəsmiləşdirilmədikdə), Bank Müştərinin sərəncamlarının icra edilməməsinə görə məsuliyyət daşımır.
5.7. Baş vermiş dəyişikliklər barədə Qaydaların 3.3.9-cu yarımbəndində göstərilən sənədlərin Müştəri tərəfindən təqdim edilməməsi və ya vaxtlı-vaxtında təqdim edilməməsi nəticəsində yaranan zərərə görə Bank məsuliyyət daşımır.
5.8. Tərəflər Müqavilə ilə üzərilərinə götürdükləri öhdəliklərin tam və ya qismən icra edilməməsinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə Müqavilənin bağlanmasından sonra yaranmış, Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə və təsirinə mane ola bilmədikləri qarşısıalınmaz qüvvənin təsirindən əmələ gəlmiş olsun. Bu cür hallara daşqın, zəlzələ, yanğın, yer sürüşməsi və digər təbii fəlakətlər, epizootiya, epidemiya, pandemiya, müharibə və hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, tətil və inqilablar, Tərəflərin bu Müqavilə üzrə funksiyalarının həyata keçirilməsini və vəzifələrinin icrasını bilavasitə və ya dolayısı ilə qadağan edən, yaxud məhdudlaşdıran qanunvericilik, dövlət (hökumət), yerli özünüidarəetmə orqanlarının, müvafiq səlahiyyətlərə malik qurumların (o cümlədən Azərbaycan Respublikasının Mərkəzi Bankının), beynəlxalq təşkilatların aktlarının qüvvəyə minməsi, habelə Vasitəçi bankların fəaliyyətinə şamil edilən, yaxud həmin banklar tərəfindən tətbiq olunan qadağanedici və məhdudlaşdırıcı tədbirlər (sanksiyalar, embarqo və s.) aiddir.
5.9. Müqavilənin 5.8-ci bəndində göstərilən səbəblərdən Müqavilənin icrası mümkün olmadıqda, onun icrası həmin halın mövcud olduğu müddət ərzində dayandırılır.
5.10. Fors—major halların təsirinə məruz qalan Tərəf digər Tərəfi belə halların baş verdiyi gündən 5 (beş) təqvim günündən gec olmayaraq yazılı surətdə xəbərdar etməlidir.
5.11. Fors—major halların baş verməsi barədə xəbərdar etməyən və ya vaxtlı—vaxtında xəbərdar etməyən Tərəf Müqavilə üzrə öhdəliklərini icra edə bilmədikdə fors—major hallara istinad etmək hüququnu itirir.
5.12. Fors—major halların baş verməsinə istinad etmək hüququnu itirmiş Tərəf qüvvədə olan qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.
5.13. Fors—major halların mövcudluğu və təsir müddəti səlahiyyətli dövlət orqanları və ya digər səlahiyyətli təşkilatlar tərəfindən verilən sənədlərlə təsdiq olunmalıdır.

## *6. KONFİDENSİALLIQ*

6.1. Bununla Tərəflər Müqavilə üzrə öhdəliklərin icrası zamanı mübadilə edəcəkləri konfidensial informasiyanın mühafizəsi şərtlərini və qaydasını müəyyən edirlər. Bu zaman konfidensial informasiyanı təqdim edən Tərəf «Təqdim edən tərəf», konfidensial informasiyanı alan Tərəf isə «Əldə edən tərəf» adlandırılacaq.
6.2. Müqavilənin məqsədləri üçün «konfidensial informasiya» deyildikdə, kommersiya, bank sirləri, konfidensial fərdi məlumatlar və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən konfidensial hesab olunan digər informasiya başa düşülür.
6.3. Konfidensial informasiya kağız və ya elektron daşıyıcıda təqdim edilərkən onların yerləşdirildikləri zərfin, eləcə də zərfin içərisindəki konfidensial informasiya daşıyıcılarının hər birinin üzərində «Kommersiya sirri» qrifi/«Məxfidir» qeydi qoyulmalı və Təqdim edən tərəfin tam adı və hüquqi ünvanı, habelə daşıyıcının nüsxələrinin nömrələri qeyd edilməlidir. Açıq (şəffaf) hissələrə malik zərflərin istifadəsi qadağandır.
6.4. Kağız və elektron daşıyıcılarda konfidensial informasiya təhvil-təslim Aktı əsasında verilir. Həmin Aktı Təqdim edən tərəf 2 (iki) nüsxədə hazırlayır, Tərəflərin səlahiyyətli nümayəndələrinin imzası ilə təsdiq edilir və Tərəflərin hər birində 1 (bir) nüsxəsi saxlanılır.
6.5. Şifahi surətdə verilmiş məlumatlar yalnız o halda konfidensial sayılır ki, bu məlumatın konfidensial xarakter daşıdığı Təqdim edən tərəfin Əldə edən tərəfə məlumatı şifahi surətdə açıqladığı tarixdən 5 (beş) iş günü ərzində Tərəflər arasında kağız daşıyıcıda yazılı şəkildə təhvil-təslim Aktının

rəsmiləşdirilməsi yolu təsdiq edilsin. Təhvil-təslim Aktını Təqdim edən tərəf 2 (iki) nüsxədə hazırlayır, Tərəflərin səlahiyyətli nümayəndələrinin imzası ilə təsdiq edilir və Tərəflərin hər birində 1 (bir) nüsxəsi saxlanılır.

6.6. ***Tərəflər öhdələrinə götürürlər:***

6.6.1. Konfidensial informasiyanın verilməsini Tərəflərin səlahiyyətli nümayəndələrinin imzası ilə təsdiq edilmiş təhvil-təslim Aktı ilə rəsmiləşdirməyi;
6.6.2. Konfidensial informasiyanın təqdim edilməsini qiymətli (sifrişli) poçt göndərişləri və ya Tərəflərin kuryerləri vasitəsilə həyata keçirməyi;
6.6.3. Tərəflər arasında razılaşdırılan və Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq konfidensial informasiyanın mühafizəsini təmin edən tədbirlər görülmədən belə informasiyanı telefon, teleqraf və faksimil rabitə kanalları vasitəsilə, eləcə də «İnternet» informasiya-telekommunikasiya şəbəkəsindən istifadə etməklə bir-birinə təqdim etməmək;
6.6.4. Konfidensial informasiyanın məxfiliyini, tamlığını və əlçatanlığını Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq təmin etmək;
6.6.5. Aşağıdakı hallar istisna olmaqla, Təqdim edən tərəfin qabaqcadan yazılı razılığı olmadan konfidensial informasiyanı açıqlamamaq:

a) Əldə edən tərəfdən konfidensial informasiyanın Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət hakimiyyəti orqanlarına təqdim edilməsi tələb olunduqda. Bu zaman Əldə edən tərəf, əgər bu Azərbaycan Respublikasının qanunvericiliyinə zidd deyilsə, konfidensial informasyanın bilavasitə verilməsinə qədər Təqdim edən tərəfə yazılı formada bildiriş göndərməlidir;

b) konfidensial informasiyanın öz işçilərinə və vəzifəli şəxslərinə verilməsi Əldə edən tərəfin müqavilə öhdəliklərinin təxirəsalınmadan icrası zərurətindən irəli gəldikdə, bu şərtlə ki, Əldə edən tərəf bu bəndə uyğun olaraq konfidensial informasiyanı açıqlandığı şəxslərin konfidensial informasiyanın mühafizəsi üzrə tələblərə riayət etmələrinə görə məsuliyyət daşıyır;

c) konfidensial informasiya onun açıqlandığı tarixə artıq ictimailəşdikdə və ya Təqdim edən tərəf qarşısında məxfiliklə bağlı öhdəliklərini pozmayan üçüncü şəxs tərəfindən verildikdə.

6.6.6. Konfidensial informasiyanın açıqlanması halları (və ya açıqlanması təhlükəsi) barədə bir-birini təxirəsalınmadan məlumatlandırmaq, belə faktların araşdırılmasını təmin etmək. Konfidensial informasiyanın açıqlanması faktlarının araşdırıması zamanı Tərəflər qarşılıqlı razılaşma əsasında bir-birilərinə məlumatların mühafizəsi sahəsi üzrə mütəxəssislərini göndərə bilərlər. Belə mütəxəssislərin ezamiyyə xərclərini konfidensial informasiyanın açıqlanmasına yol vermiş Tərəf ödəyir.
6.7. Təqdim edən tərəfin Əldə edən tərəfə Müqaviləyə uyğun olaraq verdiyi bütün konfidensial informasiya, onların təqdim edilmə formasından asılı olmayaraq, Təqdim edən tərəfin müstəsna mülkiyyətində qalır. Təqdim edən tərəfin yazılı tələbi üzrə, belə tələbin alındığı tarixdən 5 (beş) iş günü və ya müvafiq tələbdə göstərilən müddət ərzində, Təqdim edən tərəfindən Müqaviləyə uyğun olaraq Əldə edən tərəfə verilmiş bütün konfidensial infomasiya Təqdim edən tərəfin tələbindən asılı olaraq təxirəsalınmadan qaytarılmalı və ya məhv edilməlidir. Konfidensial informasiyanın qaytarılması və ya məhv edilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə, yaxud Tərəflər arasında bağlanmış müqavilənin (sazişin) şərtlərinə zidd olduğu hallarda bu qayda istisna edilir (tələb yerinə yetirilmir). Konfidensial informasiya Əldə edən tərəfin belə informasiyaya çıxış imkanı olan işçiləri tərəfindən məhv edilir və Əldə edən tərəf onun nəticələri üzrə «Konfidensial informasiyanın məhv edilməsi barədə Akt» tərtib edir.
6.8. Qaydaların 6.7-ci bəndində göstərilən əsaslarla konfidensial informasiyanın məhv edildiyi tarixdən 5 (beş) iş günü ərzində Əldə edən tərəf Təqdim edən tərəfi konfidensial informasiyanın məhv edilməsinə dair Aktı göndərməklə yazılı surətdə belə konfidensial informasiyanın məhv edilməsi faktı barədə məlumatlandırmalı və ya yazılı formada konfidensial informasiyanın məhv edilməsindən əsaslandırılmış imtina göndərməlidir.
6.9. Müqavilə çərçivəsində əməkdaşlıq zamanı Təqdim edən tərəfdən alınmış konfidensial informasiyanın onun yazılı tələbi üzrə qaytarılması akt əsasında həyata keçirilir. Qeyd edilən aktı Təqdim edən tərəf 2 (iki) nüsxədə hazırlayır, Tərəflərin səlahiyyətli nümayəndələrinin imzası ilə təsdiq edilir və Tərəflərin hər birində 1 (bir) nüsxəsi saxlanılır.

6.10. Konfidensial informasiyanın itirilməsinə və ya açıqlanmasına yol vermiş Tərəf Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq konfidensial informasiyanın açıqlanması nəticəsində Təqdim edən tərəfə dəymiş zərəri tam həcmdə ödəməlidir.
6.11. Konfidensiallıqla bağlı bu bəndlə müəyyən olunmuş tələb və şərtlər Müqavilənin qüvvədə olduğu müddət və Müqaviləyə xitam verildikdən sonra 5 (beş) il ərzində öz qüvvəsini saxlayır.

## *7. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI*

7.1. Müqavilənin icrası, pozulması, ona xitam verilməsi və ya etibarsızlığı ilə bağlı mübahisələr də daxil olmaqla, Müqavilədən və ya onunla əlaqədar yaranan bütün münaqişələr, fikir ayrılıqları və tələblər Tərəflərin səlahiyyətli nümayəndələri arasında danışıqlar aparılmaqla həll olunur.
7.2. Danışıqlar yolu ilə Tərəflər arasında qarşılıqlı surətdə məqbul sayılan həll tapılmadıqda (pretenziya qaydası sayılmır və həmin qaydaya riayət olunması tələb edilmir), mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq həll edilir.

## *8. MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİ QAYDASI*

8.1. Müqaviləyə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan qaydada xitam verilə bilər.
8.1.1. Müştərinin yazılı müraciətinə əsasən Müqavilə istənilən vaxt ləğv edilə bilər. Bu zaman:
(i) Müqavilənin ləğv edilməsi Bank tərəfindən Müştəriyə hesablaşma-kassa xidmətlərinin, eləcə də Müqavilə çərçivəsində digər xidmətlərin, həmçinin qüvvədə olan Müqavilənin mövcud olması müvafiq xidmətin göstərilməsinin mühüm şərtidirsə, digər müqavilələrə əsasən xidmətlərin göstərilməsinə xitam verilməsi ilə nəticələnir.
(ii) Bankın müəyyən etdiyi və ya Müştərinin eyniləşdirilməsi üçün kifayət qədər məlumatları əks etdirməsi şərtilə sərbəst formada tərtib olunmuş Müştərinin Müqaviləni ləğv edilməsi, Hesab(lar)ın bağlanması və olduğu təqdirdə hesab qalığının köçürülməsi barədə müraciəti Banka:
- Müştərinin müvafiq səlahiyyətlərə malik nümayəndəsi tərəfindən kağız daşıyıcıda; və ya
- kuryer və poçt rabitəsi vasitəsilə kağız daşıyıcıda; yaxud
- «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə cavab verən gücləndirilmiş elektron imzanın istifadəsinə imkan verən rabitə kanalı (sistemi) vasitəsilə elektron formada göndərilə (təqdm edilə) bilər.

(iii) Banka daha əvvəl verildiyi hallar istisna olmaqla, Müştəri müvafiq müraciəti imzalamış və Banka göndərmiş şəxsin səlahiyyətlərini təsdiq edən sənədləri (həmin sənədlərin əslini və ya lazımi qaydada təsdiq olunmuş surətini) Banka təqdim etməyi öhdəsinə götürür.
8.1.2. Müştəri 2 (iki) il və daha çox müddət ərzində Hesab(lar) və Bankda açılmış kart hesab(lar)ı üzrə hər hansı əməliyyat aparmadıqda, eyni zamanda Müştərinin Hesabına bağlı aktiv əmanət müqaviləsi, kredit müqaviləsi, depozit seyfi müqaviləsi, qarantiya/kontr-qarantiya (Bankla bağlanmış «Qarantiya/Kontr-Qarantiya verilməsi şərtləri haqqında» Saziş əsasında verilmiş), akkreditiv (Bankla bağlanmış «Akkreditivin açılması şərtləri haqqında» Saziş əsasında açılmış), ödəniş kartı olmadıqda, habelə Müştəri tərəfindən göstərilən müddətdə Bankda yeni cari və ya kart hesabı açılmadıqda, sonuncu Müştərinin müvafiq Hesabını bağlaya, qeyd edilən Hesab onun Bankdakı yeganə hesabı olarsa, Bank Müqavilənin icrasından imtina edə bilər.
Bu yarımbənddə nəzərdə tutulan əsaslarla Hesabın bağlanması və/və ya Müqavilənin icrasından imtina edilməsi üçün Bank Müştərini 30 (otuz) təqvim günü əvvəlcədən bu Müqavilənin 9.1-ci bəndinin «ii»-«vi» abzaslarında göstərilən üsullardan biri və ya bir neçəsi vasitəsilə xəbərdar edir. Qeyd edilən xəbərdarlıq müddətinin bitdiyi tarixdən Müqavilə (müvafiq hesaba münasibətdə) öz qüvvəsini itirir (xitam verilmiş hesab olunur).
8.1.3. Bank aşağıdakı hallarda Müqaviləni məhkəməyə müraciət olunmadan birtərəfli qaydada ləğv etmək hüququna malikdir:
(i) ciddi əsaslar olduqda, xüsusilə də Müştərinin Hesabdan qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edildikdə;
(ii) təqvim ili ərzində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və

terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə əsasən Müştərinin sərəncamlarının icrasından imtina barədə 2 (iki) və ya daha çox qərar qəbul edildikdə;

(iii) Bank tərəfındən Müştərinin fəaliyyətində şübhəli əməliyyatların və əqdlərin əlamətləri aşkar edildikdə, eləcə də Müştəri tərəfindən Banka əlavə, o cümlədən Hesab üzrə aparılan əməliyyatların iqtisadi mahiyyətini izah edən məlumat və/və ya sənədlər təqdim edilmədikdə;

(iv) Müştərinin eyniləşdirmə məlumatlarının aşağıdakı şəxslərlə üst-üstə düşdüyü (bir-birinə uyğun gəldiyi) müəyyən edildikdə:

– müvafiq səlahiyyətli orqan (qurum) və/və ya beynəlxalq təşkilat tərəfindən ekstremist fəaliyyətlə və ya terrorizmlə əlaqələri mövcud olan fiziki şəxslərə və təşkilatlara dair siyahıya daxil edilmiş subyektlərlə;

– terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə funksiyaları həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən pul vəsaitlərinin və ya digər əmlakının dondurulması (bloklaşdırılması) barədə qərar qəbul edilmiş şəxslərlə;

– müvafiq səlahiyyətli orqan (qurum) və/və ya beynəlxalq təşkilat tərəfindən kütləvi qırğın silahlarının yayılmasına aidiyyəti olan subyektlər barədə siyahıya daxil edilmiş fiziki şəxslər və təşkilatlarla;

– Azərbaycan Respublikasının milli maraqlarının müdafiəsi üçün barələrində məhdudlaşdırıcı tədbirlər görülmüş şəxslərlə.

8.2. Müştəri Müqaviləyə uyğun olaraq Bank tərəfindən açılmış istənilən Hesabı bağlamaq hüququna malikdir, bir şərtlə ki, Hesabın Bankla bağlanmış bu və ya digər müqavilə/əqd (kredit, qarantiya, akkreditiv və s.) üzrə öhdəliklərin icrası ilə bağlılığı olmasın, yaxud Hesab üzərində qanunvericiliklə nəzərdə tutulmuş və Hesabın bağlanmasını istisna edən məhdudiyyətlər müəyyən edilməsin. Bank tərəfindən Müqaviləyə əsasən açılmış Hesablardan birinin bağlanması barədə Müştəridən ərizə alındıqda, Müqavilə digər Hesablara münasibətdə qüvvəsini itirmir. Müştəri Bankda açılmış yeganə Hesabını bağlayarsa, Bank Müştərini yazılı formada xəbərdar etməklə və ya poçt vasitəsilə, yaxud Qoşulma haqqında ərizədə göstərilən elektron poçt ünvanına bildiriş göndərməklə Müqavilənin icrasından imtina edə bilər.

8.3. Müqaviləyə xitam verilməsi onun iştirakçılarını Müqavilənin qüvvədə olduğu dövrdə həyata keçirilmiş əqdlər və əməliyyatlar üzrə öz üzərilərinə götürdükləri öhdəliklərin icrasından azad etmir.

## *9. TƏRƏFLƏRİN XƏBƏRDAR EDİLMƏ QAYDASI*

9.1. Bank Müqavilə çərçivəsində öz mülahizəsinə görə bu bənddə göstərilmiş bir və ya bir neçə üsulla Müştərini xəbərdar edir:

(i) Bank tərəfindən müvafiq məlumatın Bankın saytında və ya Hesaba xidmət göstərilən yer üzrə Bankın bölməsində yerləşdirilməsi yolu ilə;

(ii) Müştərinin məlumatın göndərildiyi tarixə Banka məlum olan ünvanı (olduğu yer) üzrə xəbərdarlığın göndərilməsi yolu ilə;

(iii) MBX sistemindən istifadə edilməklə (Bankın MBX sistemində belə bir texniki imkan olduğu təqdirdə) Bank tərəfindən məlumatın göndərilməsi yolu ilə;

(iv) Qoşulma haqqında ərizədə və ya Müştərinin Bank tərəfindən qəbul edilmiş, Müştərinin Bankı öz aktual elektron poçtu barədə xəbərdar etdiyi digər ərizəsində Müştəri tərəfindən göstərilmiş, Tərəflər arasında Müqavilə çərçivəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuş elektron poçt ünvanına Bank tərəfindən bildirişin göndərilməsi yolu ilə;

(v) Qoşulma haqqında ərizədə və ya Müştərinin Bank tərəfindən qəbul edilmiş, Müştərinin Bankı öz aktual telefon/faks nömrələri barədə xəbərdar etdiyi digər ərizəsində Müştəri tərəfindən göstərilmiş, Tərəflər arasında Müqavilə çərçivəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuş nömrələrə Bank tərəfindən faks/ismarıc (o cümlədən qısa mətn bildirişləri) göndərilməsi yolu ilə;

(vi) alınması barədə qeyd və imza etdirilməklə yazılı bildirişin Müştərinin nümayəndəsinə təqdim edilməsi yolu ilə.

9.1.1. Qaydaların 3.2.12-ci yarımbəndinə uyğun olaraq Müştərinin sərəncamlarının icrasının və ya

Qaydaların 3.2.13-cü yarımbəndinə əsasən pul vəsaitlərinin Hesaba mədaxilinin dayandırıldığı hallarda Bank öz mülahizəsinə görə bu yarımbənddə göstərilmiş bir və ya bir neçə üsulla Müştərini müvafiq əməliyyatın dayandırılması barədə xəbərdar edir:

(i) Qoşulma haqqında ərizədə və ya Müştərinin Bank tərəfindən qəbul edilmiş, Müştərinin Bankı öz aktual elektron poçtu barədə xəbərdar etdiyi digər ərizəsində Müştəri tərəfindən göstərilmiş, Tərəflər arasında Müqavilə çərçivəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuş elektron poçt ünvanına Bank tərəfindən bildiriş göndərilməklə;

(ii) MBX sistemindən istifadə edilərək (Bankın MBX sistemində belə bir texniki imkan olduğu təqdirdə) Bank tərəfindən bildiriş göndərilməklə;

(iii) Müştərinin Qoşulma haqqında ərizədə göstərilən telefon nömrəsi, sərəncamı göndərən şəxsin telefon nömrəsi, Hesab üzərində sərəncam vermək səlahiyyətinə malik olan şəxslərdən hər hansı birinin telefon nömrəsi, Müştəri tərəfindən sərəncamı geri çağırmaq və ya onun bərpasını təsdiq etmək səlahiyyəti verilmiş şəxslərin telefon nömrəsi üzrə səsli və ya mətn bildirişləri göndərilməklə.

9.2. Bank Müqavilə çərçivəsində öz mülahizəsinə görə bu bənddə göstərilmiş bir və ya bir neçə üsulla Müştərini yeni məhsulları, xidmətləri, Bank tərəfindən keçirilən marketinq tədbirləri və aksiyaları barədə xəbərdar edir:

(i) Qoşulma haqqında ərizədə və ya Müştərinin Bank tərəfindən qəbul edilmiş, Müştərinin Bankı öz aktual elektron poçtu barədə xəbərdar etdiyi digər ərizəsində Müştəri tərəfindən göstərilmiş, Tərəflər arasında Müqavilə çərçivəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuş elektron poçt ünvanına Bank tərəfindən bildiriş göndərilməklə;

(ii) Qoşulma haqqında ərizədə və ya Müştərinin Bank tərəfindən qəbul edilmiş, Müştərinin Bankı öz aktual telefon/faks nömrələri barədə xəbərdar etdiyi digər ərizəsində Müştəri tərəfindən göstərilmiş, Tərəflər arasında Müqavilə çərçivəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi üçün nəzərdə tutulmuş nömrələrə Bank tərəfindən faks/ismarıc (o cümlədən səsli və/və ya foto/video təsfirlər) göndərilməklə;

(iii) MBX sistemindən istifadə edilərək (Bankın MBX sistemində belə bir texniki imkan olduğu təqdirdə) Bank tərəfindən bildiriş göndərilməklə.

9.3. Müştəri Müqavilə çərçivəsində Bankı öz mülahizəsinə görə aşağıdakı üsullarla xəbərdar edir:

(i) MBX sistemindən istifadə edilərək (Bankın MBX sistemində belə bir texniki imkan olduğu təqdirdə) Müştəri tərəfindən bildiriş göndərilməklə;

(ii) alınması barədə qeyd və imza etdirilərək yazılı bildiriş Bankın nümayəndəsinə təqdim edilməklə;

(iii) Hesaba xidmət göstərilən yer üzrə Bankın bölməsinə poçt vasitəsilə çatdırılma barədə xəbərnamə ilə sifarişli bildiriş göndərilməklə.

9.4. Bankın sorğusunun icrası məqsədilə Müştəri tərəfindən təqdim edilən sənədlər, bildirişlər, məlumatlar, Bankın müvafiq soğusunda digər qayda təyin edilməmişdirsə, Qaydaların 9.3-cü bəndində müəyyənləşdirilən qaydada göndərilir.